*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*Special Issue*
*Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research (15 October 2025)*

*Derleme Makalesi | Review Article*
*Geliş tarihi |Received:02.06.2025*
*Kabul tarihi |Accepted:10.10.2025*
*Yayın tarihi |Published:15.10.2025*

**Sevinc Vəliyeva**

https://orcid.org/0009-0000-0710-6324
*PhD in Pedagogy, Nakhchivan Teachers Institute, Azerbaijan, veliyeva_1979@bk.ru*

*Atıf Künyesi | Citation Info*

Vəliyeva, S. (2025). Tələbələrin Emosional və Psixoloji İnkişafının Aktual Məsələləri. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (Special Issue: *Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research*), 79-83.

# Tələbələrin Emosional və Psixoloji İnkişafının Aktual Məsələləri

***Xülasə***

*Məqalə ali məktəb tələbələrinin emosional və psixoloji inkişafının aktual məsələlərinin tədqiqinə həsr edilmişdir. Tədqiqatda emosiya anlayışının mahiyyəti, onun insan davranışına və şəxsiyyətin formalaşmasına təsiri araşdırılır. Müəllif emosional və psixoloji inkişafla bağlı müasir elmi yanaşmaları təhlil edir, bu proseslərin qarşılıqlı əlaqəsini izah edən nəzəri əsasları müəyyənləşdirir. Məqalədə emosiyalar haqqında mövcud nəzəriyyələr müqayisəli şəkildə təhlil olunur və emosiya probleminin bioloji, psixoloji və pedaqoji aspektləri elmi baxımdan şərh edilir. Bundan əlavə, tələbələrin emosional sabitliyinin, empatiya və özünüdərk bacarıqlarının formalaşmasına dair praktik nümunələr də təqdim edilir. Nəticədə emosional və psixoloji inkişafın ali məktəb tələbələrinin sosiallaşması, tədris nailiyyətləri və şəxsiyyət kimi inkişafında mühüm rol oynadığı qənaətinə gəlinir.*

***Açar sözlər:*** *Ali Məktəb Tələbələri, Emosiya Anlayışı, Emosional İnkişaf, Psixoloji İnkişaf, Emosiyalar Qrupu*

# The Actual Issues of Students' Emotional and Psychological Development

***Abstract***

*The article is devoted to the study of current issues related to the emotional and psychological development of university students. The research explores the essence of the concept of emotion and its influence on human behavior and personality formation. The author analyzes modern scientific approaches concerning emotional and psychological development and identifies the theoretical foundations explaining the interrelation between these processes. The article provides a comparative analysis of existing theories on emotions and presents a scientific interpretation of the biological, psychological, and pedagogical aspects of the emotion problem. In addition, practical examples are offered regarding the formation of students' emotional stability, empathy, and self-awareness skills. The study concludes that emotional and psychological development plays a crucial role in the socialization, academic achievement, and overall personal growth of university students.*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

***Keywords:*** *University Students, Concept of Emotion, Emotional Development, Psychological Development, Groups of Emotions*

## Giriş

Müasir dövrdə ali təhsil müəssisələrində tələbələrin emosional və psixoloji inkişafının təmin edilməsi pedaqoji prosesin əsas istiqamətlərindən biri kimi çıxış edir. Qloballaşma, sürətlə dəyişən informasiya mühiti, sosial-iqtisadi münasibətlərdəki yeniliklər və təhsil prosesinin intensivləşməsi gənclərin emosional sabitliyinə, psixoloji davamlılığına və sosial adaptasiya səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu səbəbdən ali təhsildə emosional və psixoloji inkişafın elmi-nəzəri əsaslarının öyrənilməsi, emosional tənzimlənmə mexanizmlərinin müəyyənləşdirilməsi və pedaqoji mühitdə harmonik inkişaf üçün şəraitin yaradılması müasir pedaqogikanın aktual istiqamətlərindən biri hesab olunur (Həsənli, 2017a; Salamova, 2016). Tələbələrin emosional və psixoloji inkişafı yalnız fərdi rifah baxımından deyil, həm də vətəndaşlıq mövqeyi və milli kimliklə bağlı dəyərlərin formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir. Gənclərin öz emosiyalarını idarə edə bilməsi, stressə qarşı dayanıqlığı və sosial empatiya qabiliyyəti onların sosiallaşma, tədris nailiyyətləri və mənəvi inkişafı ilə sıx əlaqədardır (Əliyev, 2008; Hüseynova & Vəliyeva, 2022). Bu baxımdan, ali məktəb müəllimlərinin pedaqoji fəaliyyətində tələbələrin emosional və psixoloji inkişafına sistemli şəkildə yanaşması, həm tədris prosesində, həm də sosial mühitdə onlara mənəvi dəstək göstərməsi zəruridir. Mühit və tərbiyə amillərinin tələbə şəxsiyyətinin formalaşmasında aparıcı rol oynadığı nəzərə alınarsa, emosional tərbiyənin təşkili ali məktəb pedaqogikasının prioritet məsələlərindən biri kimi qiymətləndirilməlidir (Sadiqov və b., 2023). Nəticə etibarilə, ali təhsil mühitində emosional və psixoloji inkişafın sistemli şəkildə öyrənilməsi yalnız fərdi psixoloji rifahın deyil, həm də sosial-mənəvi dəyərlərin formalaşmasının əsasını təşkil edir. Belə bir yanaşma gənc nəslin tənqidi düşünmə, empatiya, məsuliyyət və mənəvi möhkəmlik kimi XXI əsr bacarıqlarını formalaşdırmaqla, milli və bəşəri dəyərləri birləşdirən müasir təhsil modelinin əsas sütunlarından birinə çevrilir.

### Ali Məktəb Tələbələrinin Emosional və Psixoloji İnkişafının Elmi-Pedaqoji Əsasları

Məhz bu baxımdan, ali məktəb tələbələrinin emosional və psixoloji inkişafının təmin edilməsinə obyektiv və elmi yanaşma bu problemin müasir dövrdə aktuallığını bir daha təsdiq edir. Çünki ali məktəb tələbələrinin emosional və psixoloji inkişafı onların milli-mənəvi dəyərləri qoruyan, demokratiya prinsiplərinə sadiq, vətənpərvər, ərazi bütövlüyünü müdafiə etməyə hazır gənclər kimi formalaşması ilə sıx bağlıdır. “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”nda da qeyd edildiyi kimi, təhsilin əsas məqsədi — azərbaycançılıq

və vətənpərvərlik ideyalarına sadiq, demokratik düşüncəli, yaradıcı şəxsiyyət yetişdirməkdir (Azərbaycan Respublikasının Təhsil Qanunu, 2009). Belə şəxsiyyətin formalaşması isə onun emosional və psixoloji inkişafının təmin olunmasından asılıdır.

Emosionallıq insanın həyat mübarizəsinə psixoloji cəhətdən hazır olmasını müəyyənləşdirən əsas amillərdəndir. Onun təməlində sağlam emosiyalar dayanır. Emosiyalar orqanizmin yaşaması və daxili tarazlığının qorunması üçün vacib olan psixofizioloji vəziyyəti təmin edir. Bu halda orqanizmdə müsbət emosiyalar yaranır, əks vəziyyətdə isə mənfi emosiyalar meydana çıxır (Əliyev, 2008). “Emosiya” termini latın mənşəlidir və “həyəcanlandırmaq, ehtiraslandırmaq” mənasını verir. Emosiya insanın hiss və narahatlıqlarını əhatə edən subyektiv vəziyyətdir və bu hal həm psixoloji, həm də bioloji səviyyədə təzahür edir (Əliyev, 2008). Psixologiyada emosiyalar iki əsas qrupa ayrılır: duyğuların emosional tonu və hisslər. Bəzi müəlliflər affektləri də bu sferaya daxil edirlər. Duyğuların emosional tonu insanın müxtəlif duyğularının (dad, səs, temperatur və s.) təsirinə verdiyi subyektiv reaksiyanı ifadə edir (Əliyev, 2008). Şəxsiyyətin həyat fəaliyyətinə təsir edən əsas amillərdən biri emosional vəziyyətlərdir. Bu məsələ ilə bağlı elmi mübahisələr XVII–XIX əsrlərdə aparılmış və müxtəlif nəzəriyyələr formalaşmışdır (Salamova, 2016). Emosiyalar haqqında ilk nəzəriyyələrdən biri — subyektiv nəzəriyyə hesab olunur. Bu yanaşmaya görə, emosiyalar təbii ehtiyacların yaratdığı psixi hadisələrdir. İoqann Hebard emosiyanı insanın təsəvvüründə yaranan qarşılıqlı təsirlərin əksi kimi, Vilhelm Vunt isə onu psixoloji hisslərin inikası kimi xarakterizə etmişdir (Salamova, 2016).

Deməli, emosiyalar psixoloji inkişafın ayrılmaz hissəsidir. Ali məktəb müəllimləri tələbələrin emosional vəziyyətlərini izləməli və bu istiqamətdə psixoloji dəstək göstərməlidirlər. Tədqiqatlar göstərir ki, tələbələrin emosional vəziyyəti yüksəldikdə onların fəaliyyət məhsuldarlığı artır, əks halda azalır (Salamova, 2016). Emosiyalar təsir gücünə görə stenik (fəallığı artıran) və astenik (fəallığı azaldan) olmaqla iki yerə ayrılır.

Emosiyaların gərginləşməsi bəzən stress hallarına səbəb olur. Tələbələr arasında yaranan ziddiyyətlər, imtahan təzyiqləri və sosial narahatlıqlar emosional gərginliyi artıraraq stress reaksiyaları doğurur. Belə hallarda psixoloji müdaxilələr və dəstək mexanizmləri vacibdir, çünki uzunmüddətli stress ali sinir sisteminə və fizioloji tarazlığa mənfi təsir göstərir (Salamova, 2016). Bioloji baxımdan emosiya, həyat prosesini optimal səviyyədə saxlayan, orqanizmi təhlükədən xəbərdar edən mexanizm kimi çıxış edir. Tədqiqatlar göstərmişdir ki, beyində müsbət və mənfi emosiyalara cavab verən mərkəzlər yerləşir. Bu, emosiyaların orqanizmin fəaliyyətində aparıcı rol oynadığını sübut edir. Ç. Darvin də göstərmişdir ki,

emosiyaların təzahürü insanlarda həyat mübarizəsinin tərkib hissəsi kimi daha güclü şəkildə formalaşır (Salamova, 2016). Təcrübələr göstərir ki, tələbələrdə emosional gərginlik qorxu hisslərinin yaranmasına da səbəb olur. Ən çox müşahidə olunan hallar imtahan fobiyaları və qiymət qorxusudur. Qorxu insanın özünü mühafizə refleksi ilə bağlı olan təbii reaksiyadır. İ.P. Pavlov qorxunu beyində yaranan passiv müdafiə reaksiyası kimi izah etmişdir (Salamova, 2016). Qorxunun yaranması dörd əsas faktordan asılıdır: intensivlik, yenilik, təkamül prosesində formalaşmış təhlükə siqnalları və sosial təsirlər. N.İ. Reynvald qorxunu insanın kommunikativ münasibətlərində yaranan passiv müdafiə mexanizmi kimi qiymətləndirmişdir (Salamova, 2016). Müasir dövrdə tələbələrin emosional və psixoloji inkişafına təsir edən sosial amillər arasında ailə münasibətləri, ictimai təzyiq və sosial şəbəkələrdəki neqativ nümunələr də mühüm yer tutur. Bu mənfi təsirlərə qarşı mübarizə aparmaq, tələbələrə psixoloji dəstək göstərmək və sağlam emosional mühit formalaşdırmaq təhsil müəssisələrinin əsas vəzifələrindən biridir. Nəticə etibarilə, ali təhsil müəssisələrində tələbələrin emosional və psixoloji inkişafı onların intellektual, sosial və mənəvi formalaşmasının ayrılmaz tərkib hissəsidir. Bu istiqamətdə həyata keçirilən pedaqoji və psixoloji tədbirlər gənclərin həm şəxsiyyət, həm də vətəndaş kimi yetişməsində həlledici rol oynayır.

**Nəticə**

Aparılmış tədqiqatın nəticələri göstərir ki, ali təhsil müəssisələrində tələbələrin emosional və psixoloji inkişafının məqsədyönlü şəkildə nəzərə alınması və bu istiqamətdə planlı, sistemli fəaliyyətin təşkili onların şəxsiyyət formalaşmasında həlledici rol oynayır. Belə bir yanaşma tələbələrin yalnız elmi bilik və bacarıqlarının deyil, həm də emosional sabitlik, sosial adaptasiya və mənəvi-mədəni dəyərlərə bağlılıq kimi keyfiyyətlərinin inkişafına şərait yaradır. Məqalənin elmi yeniliyi ondadır ki, burada ali məktəb tələbələrinin emosional və psixoloji inkişafına dair müasir elmi yanaşmalar, həm fizioloji, həm psixoloji, həm də pedaqoji baxımdan əsaslandırılmış müddəalar sistemli şəkildə təqdim edilmişdir. Bu müddəalar ali təhsildə şəxsiyyətyönümlü təlim modelinin formalaşdırılmasına və emosional tərbiyə mexanizmlərinin elmi-nəzəri baxımdan izahına mühüm töhfə verir. Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, təqdim edilən nəticələr və yanaşmalar ali təhsil müəssisələrinin rəhbər heyəti, pedaqoqlar, psixoloqlar, tələbə kollektivləri və bu sahədə tədqiqat aparan mütəxəssislər üçün praktik dəyər daşıyır. Bu istiqamətdə tətbiq olunan metodik tövsiyələr tələbələrin emosional rifahının gücləndirilməsi, stressin idarə olunması və təlim motivasiyasının artırılması üçün real imkanlar yaradır. Nəticə etibarilə, tələbələrin emosional və psixoloji inkişafına diqqətin artırılması şəxsiyyətyönümlü təhsilin yeni məzmununun formalaşmasına, tədris prosesinin

humanistləşdirilməsinə və milli-mənəvi dəyərlərə söykənən müasir pedaqoji modelin yaradılmasına xidmət edir. Bu istiqamətdə aparılacaq gələcək tədqiqatlar ali təhsildə emosional tərbiyənin və psixoloji dəstəyin elmi-metodoloji bazasının daha da təkmilləşdirilməsinə zəmin yaradacaqdır.

## Ədəbiyyat

Əliyev, R. İ. (2008). *Psixologiya.* Nurlan.

Azərbaycan Respublikasının Təhsil Qanunu. (2009). *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu*, *6*(5), 45–52.

Həsənli, O. Q. (2017). *Təhsilin müasir psixoloji problemləri.* Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi.

Həsənli, O. Q. (2017). *Təhsilə müasir psixoloji yanaşmalar.* Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi.

Hüseynova, G. Q., & Vəliyeva, Y. Ə. (2022). *Emosiyaların psixologiyası.* Füyuzat

Sadiqov, F. B. (2024). *Ümumi pedaqogika.* Maarif.

Sadiqov, F. B., Sadıqov, F. B., Tahirova, Ş. T., Quliyev, A. İ., Mövsümlü, A. M., & Eminova, C. Ş. (2023). *Ali məktəb pedaqogikası (tədris vəsaiti).* Gənc Nəşr.

Salamova, K. B. (2016). *Ümumi psixologiya.* SDU-nun nəşriyyatı.

***Telif ve Lisans Bildirimi***

*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.*